# Şuşa Bəyannaməsi iqtisadi əməkdaşlığı da şaxələndirir

**2021-ci il 15 iyun tarixində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan ilə Türkiyə arasında uzun illərə söykənən dostluq, qardaşlıq əlaqələrinin sarsılmazlığını, əbədiliyini özündə ehtiva edən Şuşa Bəyannaməsi imzaladılar. Bütün türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanan bu bəyannamə həmişə bir yerdə olan və bir-birinin təhlükəsizliyini təmin edən iki dost və qardaş ölkənin 1921-ci ildə bağlanmış tarixi Qars müqaviləsinə sadiq olduqlarını bir daha təsdiq etdi.**



Şuşa Bəyannaməsi iki ölkə arasında münasibətləri yeni müttəfiqlik səviyyəsinə qaldırmaqla ölkələrin siyasi, iqtisadi, müdafiə, mədəni, humanitar, səhiyyə, təhsil, sosial, gənclər və idman sahələrindəki imkan və potensiallarının birləşdirilməsində mühüm rol oynayır. Bəyannamədə göstərilən bütün müddəalar keyfiyyətcə daha yüksək səviyyəli əməkdaşlığa, eyni zamanda tərəfdaşlığa təminat verir. Azərbaycan və Türkiyə müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq müttəfiqlik münasibətlərinin qurulmasının siyasi və hüquqi mexanizmlərini müəyyən edir, xarici siyasət sahəsində əlaqələndirmənin və müntəzəm ikitərəfli siyasi məsləhətləşmələrin həyata keçirilməsinin vacibliyini qeyd edir. Bu istiqamətdə Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurası çərçivəsində fəaliyyətə böyük önəm verilir. İkitərəfli münasibətlərin daha da genişləndirilməsi və dərinləşdirilməsi baxımından müstəsna əhəmiyyətə malik olan "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi" hər iki dost, qardaş ölkənin bundan sonra da türk dünyasının birliyi, həmrəyliyi naminə birgə fəaliyyətlərini daha da möhkəmləndirəcəklərini təcəssüm edir.

Azərbaycan Vətən müharibəsində qələbə qazanaraq Ermənistanın 30 ilə yaxın davam edən təcavüzkar siyasətinə cəmi 44 gün ərzində son qoydu, torpaqlarını işğaldan azad etməklə tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi. Heç bir ölkədən yardım almadan, öz potensialı, iqtisadi gücü, xalqımızın dəmir iradəsi və əzmi ilə həll etdiyi taleyüklü məsələdə qardaş Türkiyənin mənəvi-siyasi dəstəyini hər zaman hiss etdi. İstər 30 ilə yaxın müddət ərzində davam edən münaqişə dövründə, istər 44 günlük Vətən müharibəsi zamanı, istərsə də postmüharibə mərhələsində Türkiyə Azərbaycanın haqq işini dəstəkləmiş və müharibənin başladığı ilk gündən Zəfər gününə qədər onun yanında olmuşdu. Tarixin mühüm anlarında, taleyüklü məqamlarda birlikdə olan, çətin və mürəkkəb sınaqlardan əzmlə, ləyaqətlə və şərəflə çıxan Azərbaycan-Türkiyə bu gün də regionda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də bölgədə münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində səylərini davam etdirərək türk birliyinə, həmrəyliyinə töhfə verirlər. Bu baxımdan, Qars müqaviləsinə, Dostluq və Əməkdaşlıq Müqaviləsinə, Azərbaycan-Türkiyə Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım müqaviləsinə istinad edən Şuşa Bəyannaməsi tarixən mövcud olan və heç bir zaman sarsılmayan dostluq, qardaşlıq münasibətlərinin təsdiqidir. Bölgədə dayanıqlı sülh, etibarlı sabitlik və təhlükəsizlik, o cümlədən çoxşaxəli əməkdaşlıq mühiti formalaşdıran, öz milli maraq və mənafelərini təmin etməyə yönəlmiş müstəqil xarici siyasət həyata keçirən Azərbaycan-Türkiyə dostluq, qardaşlıq və mehriban qonşuluğa əsaslanan münasibətləri inkişaf etdirərək ikitərəfli əməkdaşlığı gündən-günə daha da dərinləşdirirlər.

Azərbaycanın işğaldan azad olunmuş ərazilərində aparılan bərpa-quruculuq işlərində, minalanmış ərazilərin təmizlənməsində, Qarabağın yenidən qurulmasında, bu kontekstdə Böyük Qayıdışın təmin olunmasında, silahlı qüvvələrin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsində Türkiyənin yaxından iştirakı ayrılmaz tellərlə bağlı olan iki ölkənin həyata keçirdiyi məqsədyönlü siyasətin əsasını təşkil edir.

Şuşa Bəyannaməsinin imzalanmasından sonra qısa müddət ərzində iki ölkə arasında hərbi əməkdaşlıq müttəfiqlik səviyyəsinə yüksəlmiş və bu sahədə sürətli inkişafa nail olunmuşdur. Eyni zamanda, iki dost və qardaş ölkə arasında strateji səviyyədə inkişaf edən münasibətlər bir çox məsələlərlə yanaşı, eyni zamanda ticari-iqtisadi münasibətlərdə ölkələrin milli iqtisadiyyatlarının və ixracın şaxələndirilməsi, eləcə də perspektiv sahələrdə birgə istehsalın qurulması, investisiya əməkdaşlığının qarşılıqlı faydalı inkişafı üçün daha əlverişli şərait yaradılmışdır.

Regionda yeni siyasi-iqtisadi münasibətlərin təməlini qoyan, yalnız Azərbaycan və Türkiyə üçün deyil, bütün türk dünyasının inkişafına, təhlükəsizliyinə və əməkdaşlığa etibarlı zəmin yaradan Şuşa Bəyannaməsi Zəngəzur dəhlizinin açılmasını və bununla da nəqliyyat-kommunikasiya əlaqələrinin bərpasını nəzərdə tutur ki, bu da iqtisadiyyatın şaxələndirilməsində mühüm amildir. Belə ki, iqtisadi inkişaf mərhələsinin vacib amili olan Zəngəzur dəhlizi türk dünyası ölkələrinin iqtisadi birliyi üçün yeni imkanlar yaradacaq, region ölkələrinin maraqlarına tam cavab verərək regionda nəqliyyat kommunikasiyalarının açılması ilə qarşılıqlı dialoq, etimad mühiti formalaşdıracaq. Bu dəhliz vasitəsilə Naxçıvanla birbaşa əlaqələr bərpa ediləcək. Bu isə təkcə muxtar respublikanın nəqliyyat blokadasından çıxmasına deyil, bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələrinin blokadadan çıxarılmasına xidmət edəcək. Belə ki, Zəngəzur dəhlizinin açılması ilə təcrid şəraitindən azad olunaraq ölkə iqtisadiyyatına tam inteqrasiya edə biləcək Naxçıvan həm də hərtərəfli iqtisadi inkişafa nail olacaq. Azərbaycanla Naxçıvan arasında olan ərazi şimal-cənub və qərb istiqamətində olan bütün kommunikasiyaların məhz Naxçıvandan Türkiyəyə, oradan da Aralıq dənizi vasitəsilə digər qərb dövlətlərinə, Çin, Orta Asiya-Azərbaycan-Türkiyə-Avropa tranzit-nəqliyyat xəttindən istifadə etmək imkanı yaradacaq. Bu da Türk dünyasının birləşməsi deməkdir. Nəticədə Azərbaycanın Bakı-Tbilisi-Qars dəmiryolu ilə yanaşı, Naxçıvan vasitəsilə də Türkiyə üzərindən Avropaya çıxışı olacaq.

Bu baxımdan, Zəngəzur dəhlizinin açılması regionun siyasi, iqtisadi mənzərəsini dəyişəcək, inteqrasiyanı təmin edəcək və iqtisadi baxımdan bu yoldan istifadə edən bütün tərəflərə real iqtisadi dividendlər gətirəcək, eyni zamanda xarici şirkətlərin regiona sərmayə yatırmaq istəklərini də əhəmiyyətli dərəcədə artıracaq. Bir sözlə, Zəngəzur dəhlizinin istifadəyə verilməsi bütün türk dünyasının ümumi daxili məhsulunun həcminin artmasına səbəb olacaq ki, bu da iqtisadiyyatın şaxələndirilməsi, əlaqələrin möhkəmləndirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan iki dost və qardaş ölkə - Azərbaycan və Türkiyə respublikaları arasındakı münasibətləri keyfiyyətcə yeni, müttəfiqlik səviyyəsinə qaldıran, iki ölkə və onların xalqlarının maraq və mənafelərinə xidmət edən Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsində Azərbaycan və Türkiyəni birləşdirən Azərbaycan Respublikasının qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında Zəngəzur dəhlizinin açılmasının və həmin dəhlizin davamı kimi Naxçıvan-Qars dəmiryolunun tikintisinin iki ölkə arasında nəqliyyat-kommunikasiya əlaqələrinin intensivləşməsinə mühüm töhfə verəcəyini qeyd etmişlər. Naxçıvan bu dəhliz sayəsində dövlət büdcəsinə maliyyə baxımından baha başa gələn hava yolu ilə yükdaşımaları dəmiryolu ilə həyata keçirə biləcək. Şuşa Bəyannaməsinin imzalanması ilə Azərbaycanla Türkiyə iqtisadi əlaqələrin möhkəmlənməsinə və daha da genişlənməsinə nail olacaqlar.

Dövlətlərimiz arasındakı münasibətlər bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq daha yüksək səviyyəyə çatmışdır. Azərbaycan-Türkiyə münasibətləri bu gün hər iki ölkə rəhbərliyi tərəfindən həyata keçirilən düzgün, məqsədyönlü siyasətin məntiqi nəticəsi olaraq möhkəm təməllər üzərində inkişaf edir. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın "bundan sonra güclənən bir Azərbaycan, güclənən bir Türkiyə vardır", hər zaman Türkiyə ilə münasibətlərə xüsusi önəm verən ölkə başçımız, Prezident İlham Əliyevin isə "Bizim Türkiyə ilə qardaşlıq əlaqələrimiz dayanıqlıdır və reallaşdırılan layihələr bunu təsdiqləyir: aramızdakı qardaşlıq, dostluq əbədi olacaq, XXI əsr türk dünyası əsri olacaq" kəlamları bu gün ölkələrimiz arasında mövcud olan əbədi və sarsılmaz dostluğun bariz nümunəsidir.

**Mehparə ƏLİYEVA,**
**"Respublika".**